**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**Ə M R İ**

---

**№145** **28 noyabr 2013-cü il**

## Sakinlərə elektron xidmətlərin göstərilməsi haqqında

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 2012-ci ilin may ayından başlayaraq elektron hökumətin tətbiqi istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Elektron hökumətin tətbiqi ilə əlaqədar ölkədə yerli icra hakimiyyəti orqanları arasında ilk dəfə olaraq Binəqədi Rayon İcra Hakimiyyətində tam avtomatlaşdırılmış informasiya sistemi qurulmuş, sistemdə kargüzarlıq, operativ məlumat, kadr, məsləhət-məşvərət, ev təsərrüfatının uçotu, statistik hesabat altmodulları hazırlanaraq istifadəyə verilmişdir.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri, bələdiyyələr, həmçinin rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə, təşkilatlar və xidmət strukturları lokal şəbəkəyə qoşulmuşlar.

Qeyd olunan işlərlə yanaşı vətəndaşlara elektron xidmətlərin göstərilməsi imkanları da daima diqqət mərkəzində saxlanılmış və sakinlərin qəsəbə icra nümayəndəliklərinə gəlmədən, məmurlarla birbaşa ünsiyyətə girmədən elektron formada müraciət edərək zəruri sənədləri qısa müddət ərzində əldə edə bilmələri istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Qeyd olunanları nəzərə alaraq, sakinlərə elektron xidmətlər göstərilməsinə başlanılması məqsədilə “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 6.8-ci bəndinə əsaslanaraq

**Ə M R  E D İ R Ə M:**

1. 2 dekabr 2013-cü il tarixdən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Rəsulzadə qəsəbəsi, 1 və 2 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliklərində vətəndaşlara yaşayış yeri (o cümlədən ailə tərkibi barədə) və 2 nömrəli forma üzrə arayışların pilot variantda elektron şəkildə verilməsinə başlanılsın.

2. 1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəlikdə elektron xidmətlərin göstərilməsi 102 saylı Mənzil Kommunal İstismar Sahəsinin, 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə isə elektron xidmətlərin göstərilməsi 92 saylı Mənzil Kommunal İstismar Sahəsinin xidmət ərazisi müəyyən edilsin.

3. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi Mübariz Məmmədova, 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nəsimi Cəfərova və 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Adil Misirova tapşırılsın ki, vətəndaşlara elektron xidmət göstərilməsi ilə əlaqədar zəruri tədbirlərin operativ şəkildə yerinə yetirilməsini təmin etsinlər.

4. Binəqədi RİH başçısının qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın ki, ev təsərrüfatlarının uçotu kitablarında olan məlumatların AİS-ə daxil edilməsinin qısa müddət ərzində yekunlaşdırılmasını təmin etsinlər.

5. Aparatın Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinə tapşırılsın ki, AİS-in ev təsərrüfatları altmoduluna məlumatların daxil edilməsi işlərinə nəzarəti və metodik köməklik göstərilməsini təmin etsin.

6. Binəqədi rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Azər Məmmədova tapşırılsın ki, vətəndaşlara elektron xidmət göstərilməsi ilə əlaqədar 1 və 2 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliklərə zəruri köməkliyin göstərilməsini təmin etsin.

7. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Süleymanova, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aqil Eyvazova və Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanova

tapşırılsın ki, əhaliyə onlayn elektron xidmətlərin göstərilməsinin ictimaiyyətə geniş surətdə təqdimatının təşkilini və görülən işlərin kütləvi informasiya vasitələrində işıqlandırılmasını təmin etsinlər.

8. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Süleymanova, Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanova tapşırılsın ki, əhaliyə göstərilən elektron xidmətlərin keyfiyyət səviyyəsinin ölçülməsi məqsədilə prosesi mütəmadi olaraq nəzarətdə saxlasınlar, əhali arasında daim təbliğat işlərini təşkil etsinlər və RİH başçısına məlumat versinlər.

**Xaləddin İsgəndərov**